# Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurası haqqında Əsasnaməyə dəyişikliklər edilməsi barədə Qərar

Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurasının fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə Müstəqil Dövlətlər Birliyinin Hökumət Başçıları Şurası **qərara alır:**

1. Müstəqil Dövlətlər Birliyi Hökumət Başçıları Şurasının 2002-ci il 30 may tarixli Qərarı ilə təsdiq edilmiş, Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurası haqqında Əsasnamədə aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3.1-ci bəndin dördüncü abzası aşağıdakı redaksiyada verilsin:

- *«müəyyən edilmiş qaydalara müvafiq, Şuranın fəaliyyət istiqamətləri üzrə işçi orqanlar (komitələr, komissiyalar, işçi qrupları) yaratmaq və lazım gəldikdə, onlar barədə əsasnamələri təsdiq etmək».*

1.2. 3.2-ci bəndin dördüncü abzasında *«qrupları»* sözünü *«orqanları»* sözü ilə əvəz edilsin.

1.3. 4.9-cu bəndin ikinci cümləsində *«MDB-nin iştirakçısı olan dövlətlərin»* sözlərindən sonra *«həmçinin işçi orqanlarının nümayəndələri»* sözləri əlavə edilsin.

1.4. 6-cı «Maliyyələşdirmə» bölməsinin birinci və ikinci abzasları aşağıdakı redaksiyada verilsin:

*«Şuranın və onun işçi orqanlarının iclaslarının maliyyə təminatı MDB-nin iştirakçısı olan qəbul edən dövlətin gömrük xidmətinin vəsaitləri hesabına həyata keçirilir.*

*Şuranın üzvləri və ekspertlərin, həmçinin işçi orqanların nümayəndələrinin ezam edilməsi üzrə xərcləri göndərən müvafiq dövlətin gömrük orqanı çəkir».*

2. Bu Qərar imzalandığı gündən qüvvəyə minir. Qanunvericiliyi zəruri dövlətdaxili prosedurların yerinə yetirilməsini tələb edən dövlətlər üçün göstərilən prosedurların yerinə yetirilməsi haqqında bildirişin depozitariyə saxlanmağa verildiyi tarixdən qüvvəyə minir.

2008-ci il 23 may tarixində Minsk şəhərində rus dilində bir əsl nüsxədə imzalanmışdır. Əsl nüsxə, bu Qərarı imzalamış hər bir dövlətə onun təsdiq edilmiş surətini göndərəcək Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsində saxlanılır.

| | |
|---|---|
| ***Azərbaycan Respublikası Hökuməti adından*** | ***Moldova Respublikası Hökuməti adından*** |
| ***Ermənistan Respublikası Hökuməti adından*** | ***Rusiya Federasiyası Hökuməti adından*** |
| ***Belarus Respublikası Hökuməti adından*** | ***Tacikistan Respublikası Hökuməti adından*** |
| ***Gürcüstan Hökuməti adından*** | ***Özbəkistan Respublikası Hökuməti adından*** |

| | |
|---|---|
| ***Qazaxıstan Respublikası Hökuməti adından*** | ***Ukrayna Hökuməti adından*** |
| ***Qırğız Respublikası Hökuməti adından*** | |

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (31 may 2009-cu il, № 5 (143), maddə 298) («VneshExpertService» LLC).***

***Azərbaycan Respublikasının 14 aprel 2009-cu il tarixli, 790-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmişdir («VneshExpertService» LLC).***

*© VneshExpertService LLC*